# Möhtəşəm on gün

"... Biz öz varlığımızı yalnız mədəniyyət ilə sübut edə bilərik, çünki mədəniyyət və incəsənət ən böyük informasiya mənbəyidir"

Üzeyir Hacıbəyli

Olduqca qədim bir tarixə malik olan Azərbaycan xalqının mədəniyyəti və incəsənəti hələ qədim zamanlardan Qafqazda, Orta Asiyada və Yaxın Şərq ölkələrində böyük şöhrət qazanmışdı. Bu mədəniyyət və incəsənətin əsl inkişaf mərhələsi isə tarixi qələbələr qazandığı dövrə təsadüf edir və bu zaman əldə olunan hər bir yaradıcılıq təşəbbüsü də böyük maraqla qarşılanırdı.

**27 mart 1938-ci ildə Moskvaya yola düşən 700 nəfərlik böyük incəsənət ordusu Azərbaycan xalqının musiqi mədəniyyətinin nümayəndələridir. Onlar arasında xalq aşıqları, gözəl səsli xanəndə qızlar, Azərbaycan operasının banisi və səhnəmizə "Koroğlu" kimi şah əsər vermiş Üzeyir Hacıbəyli, yetişdirdiyi gənc bəstəkarlar, xor ifaçıları, çalğıçılar var idi.**





"Koroğlu" operasına həsr olunmuş SSRİ poçt markası (1966)





ƏMƏKDAR INÇƏSƏNƏT XADIMI QOMPOZITOR
UZEIR HAÇЬBƏJOVUN
JENI AZƏRBAJÇAN OPERASЬ
KOROQLU
5 pərdədə
Syzeti azərbajçan xalq eposundan alьnmьşdьr
Teqst M. S. ORDUBADЬNЬNDЬR
Quruluş-resp. əməkd. artisti I. HIDAJƏTZADƏNINDIR
Tərtibat-rəssamlardan ordenli
R. MUSTAFAJEV ilə M. SAQЬJANЬNDЬR

PROQRAM

| | |
|---|---|
| Rovşən | Byl-Byl (əməkdar artist ordenli) |
| Alь | Haqverdijev Xanlar |
| Nigar | Gylara |
| Həsən-xan | Baqьrov M. T. (resp. əməkdar artisti) |
| Fətulla-xan | Zylalov Ə. |
| Ibrahim-xan | Mustafajev B. A. |
| Həmzə-bəj | Hysejnov H. B. |
| Nədim (təlxək) | Iskəndərov Q. Q. |
| Xanəndə qьz | Paşajeva M. M. |
| Nadir | Zylalov Q. |
| Vəli | Tahirov R. |
| Ejvaz | Sadьqov Ə. O. |
| Polad | Topcijan Q. Q. |
| Fərraş | Tahirov R. V. |
| Ə'jan | Zylalov Q.; Abasqulujev Ş. |
| Çarçь | Rzajev H. Q.; Tahirov R. V.; Şirzad |
| Prima-balerina | T. Almaz-zadə |

Xormejster Qrosman J. A.
2-çi xormejster Burştejn Q. Z.
Baletmejster Arbatov I. I.
Qonsertmejsterlər: Rainer L. I., Qazlov V. M., Fedorova N. N.
Quruluş hissəsi mydiri Najdьşev V. A.
Rezissor Rzajev Hysejn
Rezissor-administrator Şahnazarov L. Y.
Rezissor-laborant Mextijev B. X.

Deqorasija sexi mydiri Filippov A. J.
Dylgərlik Saslin V. P.
Tikiş Neqrasova P. Q.
Əlbəsə Xasejeva
Pariqmaxer Oxlomatin V.
Texn.-işıq Arzanov M. və Murodxanov N. N.
Mexanik Xalqovski A.
Butaforija Stemsolski J.
Ajaqqabь Sovorov V.

Baş Mətbuat Mydirlij Myvəkkili 21/IV-37 il. Sifariş № 1765. Tirazь ... Bakpoliqrafın „Qьzьl Şərq" mətbəəsi. Bakь, Janaj pioner kyç., 54.

Azərbaycan incəsənət dekadası ictimai həyatımızda böyük bir hadisə idi. Ukrayna, Gürcüstan, Özbəkistan və Qazaxıstan öz ustalıqlarını artıq Moskva səhnəsində göstərmişdilər. Azərbaycan nümayəndə heyəti, incəsənət ustaları isə bu respublikaların bədii mədəniyyətinin zənginləşmə ənənəsini davam etdirirdi.

Azərbaycan incəsənət dekadasının iştirakçıları – 60 yaşlı zurnaçı Ağabaladan başlayaraq, 5 yaşlı Nazlıya qədər hamı – martın 30-da axşam xüsusi qatarla Moskvaya çatdılar.

**Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət işləri idarəsi Moskvada Azərbaycan incəsənət dekadası münasibətilə xüsusi sərgi hazırlamışdı. Sərgidə teatr incəsənətimizin inkişafı əks etdirilirdi. Möhtəşəm tədbirlə əlaqədar M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının dekadanın proqramına daxil edilmiş tamaşaları haqqında 4 kitab buraxıldı.**

Kitablarda bəstəkar R.M.Qliyerin "Şahsənəm", M.Maqomayevin "Nərgiz", Üzeyir Hacıbəylinin "Koroğlu" operası və "Arşın mal alan" musiqili komediyasının qısa məzmunu və bu operalar üzərində görülən işlərdən bəhs edilirdi. Dekadanın proqramına daxil edilmiş Azərbaycan Dövlət Filarmoniyasının konsertinə dair toplu da nəşr olunmuşdu. Məcmuəyə bəstəkar Üzeyir Hacıbəylinin Azərbaycanda birinci dövlət xalq xor dəstəsi haqqında yazısı, dövlət rəqs ansamblı və xalq rəqsi barədə Q.Almaszadənin məqaləsi, Azərbaycan Dövlət Konservatoriyasının elmi-tədqiqat kabinetinin rəhbəri Bülbülün musiqili folklordan bəhs edən və başqa məqalələri salınmışdı. Həmçinin aşıq yaradıcılığına dair məqalələr də daxil edilmişdi. Ümumiyyətlə, bu kitablar Azərbaycan musiqi incəsənətinin tərəqqisini əks etdirirdi.

Aprelin 2-də SSRİ Böyük Akademik Opera Teatrının filialında Üzeyir Hacıbəylinin "Koroğlu" operasına ictimai baxış oldu. Tamaşaya Moskvanın musiqi ictimaiyyəti qatılmışdı. Operaya gənc dirijor Əşrəf Həsənov dirijorluq edirdi. Qeyd edək ki, tamaşa sənətkarın diplom işi oldu. Aprelin 3-də Moskva Konservatoriyasında Əşrəf Həsənova diplom verildi.

Azərbaycan musiqi mədəniyyətinin böyük bayramına çevrilən incəsənət dekadası aprelin 5-də başladı. SSRİ Böyük Opera və Balet Teatrının səhnəsi Azərbaycan incəsənəti nümunələri ilə canlanmışdı.

Birinci olaraq Azərbaycan Dövlət Opera və Balet Teatrı "Koroğlu" operasını nümayiş etdirdi. Gözəl, həvəsləndirici, dillərdə əzbər olan qəhrəmanlıq eposu "Koroğlu"nun dərin məzmunu, ahəngdar musiqisi, gözəl quruluşu, kütləvi səhnələri, opera ifaçılarının məharəti paytaxt əməkçiləri tərəfindən alqışlarla qarşılandı. Bu opera Moskva tamaşaçılarına 4 dəfə göstərildi. Daha sonra R.Qliyerin xalq dastanı əsasında yazdığı "Şahsənəm" operası da böyük müvəffəqiyyət qazandı. Şən musiqili komediya "Arşın mal alan" Azərbaycan xalqının incəsənət dühasının daha bir xüsusiyyətini – çox qiymətli yumor hissinə malik olmasını Moskva tamaşaçılarına göstərdi. Dekadanın 4-cü günü göstərilən M.Maqomayevin "Nərgiz" operası öz aktuallığı və musiqinin çoxsəsliliyi etibarilə diqqəti daha çox çəkdi. Bundan əlavə, milli musiqi alətləri ilə notlu orkestrin birləşməsindən əmələ gələn böyük dəstənin, aşıqların, xor dəstəsinin çıxışı, qədim rəssamlarımızdan Reyhan Topçubaşovanın eskizləri əsasında Nuxa və Qarabağ geyimlərinin nümayişi, bu geyimlərdəki bəzəklərin, xəncər, gümüş toqqa və s. kimi digər aksessuarların tamaşaçılara göstərilməsi də əsl incəsənət meydanını xatırladırdı.

On gün davam edən dekada Moskva əməkçiləri, incəsənət ustaları, hökumət rəhbərlərinə Azərbaycan incəsənətinin necə böyük uğurlara imza atdığını göstərdi.

Bəli, Moskvada keçirilən Azərbaycan incəsənət dekadası Azərbaycan xalqının tarixinə, onun milli mədəniyyəti tarixinə aydın və parlaq səhifələrdən birini yazdı. Üzeyir bəyin sözləri ilə desək, öz xalqının xoşbəxtliyi və sevincindən ilham almış Azərbaycanın yaradıcı işçiləri bundan sonra da formaca milli olan Azərbaycan incəsənətinin daima təkmilləşməsi, yeni ucalıqlara yüksəlməsi və yeni qalibiyyətlər qazanması üçün var qüvvə ilə çalışmalıdırlar.

Təranə Həsənova,
Üzeyir Hacıbəylinin ev-muzeyinin kiçik elmi işçisi